**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**MEMARLIQ VƏ İNCƏSƏNƏT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**NATAVAN APDİN qızı MURADOVA**

# MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN İNCƏSƏNƏTİ ƏNƏNƏ VƏ MÜASİRLİK KONTEKSTİNDƏ

**6203.01- "İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi"**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2018**

Dissertasiya Bakı Xoreoqrafiya Akademiyasının "Sənətşünaslıq" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Timuçin İlyas oğlu Əfəndiyev**
filologiya üzrə elmlər doktoru, professor,
Əməkdar elm xadimi

**Rəsmi opponentlər:** **İlqar Həsrət oğlu Hüseynov**
Kulturologiya üzrə elmlər doktoru;

**Elşad Vüqar oğlu Əliyev**
sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Aparıcı müəssisə:** **Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**

Dissertasiyanın müdafiəsi 14 dekabr 2018-ci il saat $14^{00}$ - da AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun nəzdində yaradılmış FD.01.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az 1143, Bakı, Hüseyn Cavid prospekti 115, AMEA Memarlıq və İncəsənət İnstitutunun iclas zalı.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" _________ 2018-ci il tarixində göndərilmişdir.

**FD.01.191 Dissertasiya Şurasının**
**elmi katibi, sənətşünaslıq üzrə**
**fəlsəfə doktoru, dosent** **X.A.Zeynalov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Müstəqillik dövrü Azərbaycan incəsənəti ənənə və müasirlik kontekstində mövzusu yaşadığımız dövrdə xüsusi əhəmiyyət kəsb edir. Bu əhəmiyyət mədəni irsə marağın artması, qloballaşan dünyada milli-mənəvi sərvətləri qorumaq cəhdi, Azərbaycan incəsənətinin, o cümlədən onun klassik irsinin təbliği, Azərbaycan həqiqətlərinin dünya birliyinin diqqətinə çatdırmaq zərurəti ilə xarakterizə olunur.

Müstəqillik dövrü incəsənətində mütərəqqi ənənələr hər zaman yaşamış və incəsənətin inkişafında, onun ideologiyasının, ideya-bədii istiqamətinin müəyyən olunmasında bir mayak rolunu oynamışlar. Hazırkı dissertasiya işində incəsənətin iki sahəsi – təsviri sənət və xoreoqrafiya sənəti nəzərdən keçirilir. Ona görə də incəsənətdə ənənə və müasirlik problemi məhz bu iki sahə əsasında öyrənilir.

İncəsənətdə ənənə və müasirlik münasibətləri təkcə bədii üslubda deyil, həm də bu və ya digər əsərin bədii-estetik xüsusiyyətlərində öz əksini tapır. Bədii üslub əksər hallarda milli simvolika ilə qarşılıqlı əlaqələrə malik olur. Bu baxımdan ənənənin yaşadılması həm də bədii üslubun, onunla birlikdə milli simvolikanın müasir incəsənətdə əks olunması ilə xarakterizə edilir.

**Mövzunun aktuallığı.** Mövzu geniş aktuallığı ilə diqqəti cəlb edir. Bunun bir neçə səbəbi vardır. Əvvəla, müstəqillik dövrü incəsənətində tarixən formalaşmış mədəni irsə münasibət tamamilə yeni, fərqli kontekstdə nəzərdən keçirilir ki, bu da milli özünüdərkin inkişafı ilə əlaqədardır. İkincisi, bəzi hallarda bədii ənənə ictimai-siyasi proseslərin təsiri ilə öz ilkin məzmununu dəyişərək yeni keyfiyyətlər əxz edir. Yaxın keçmişin təcrübəsindən məlumdur ki, köhnə ictimai-siyasi quruluşun və ideologiyanın süqutu incəsənətdən də yan keçməmişdir. Bunun bariz nümunəsini götürülmüş monumental heykəltəraşlıq nümunələrində görmək olar. Bu, dəyişən dünyada dəyişən dəyərlərin radikal nümunəsidir. Eyni zamanda bir sıra sahələrdə, misal üçün kinematoqrafiyada, mənfi surətlərin müsbət keyfiyyətlər əxz etməsi günümüzün reallıqlarındandır. Misal üçün, “Axırıncı aşırım” filmindəki Kərbəlayı İsmayıl, Qəmlo surətləri, yaxud “Yeddi oğul istərəm” filmindəki Gəray bəy surəti bu gün heç də mənfi qarşılanmır. Bunu dəyişən dəyərlərin mötədil qanadı kimi qəbul edə bilərik. Nəhayət milli mədəniyyətin istənilən halda daim sevilən, bədii sənətdə ənənə və müasirlik münasidətlərinin ədəbi təcəssümü olan ölməz yaradıcılıq nümunələri də vardır. Həm də bu nümunələr say etibarilə birinci iki tipdən xeyli artıq olub incəsənətin əksər sahələrində özünü büruzə verir.

Buraya təsviri sənətin, musiqi sənətinin, xoreoqrafiyanın əksər klassik nümunələrini aid etmək olar. Dissertasiya işində təsviri sənət və xoreoqrafiya tədqiqat obyekti olduğundan yüksək ənənə meyarları məhz bu iki sahədən seçilmişdir. Tamamilə aydındır ki, qiyməti heç zaman əskilməyən bu bədii meyarlar müasir sənətin ideya-bədii tutumunun genuşlənməsində öncül mövqeyə malikdirlər. Hesab edirik ki, həqiqi sənətdə müasirlik əhvali-ruhiyyəsi yalnız mütərəqqi bədii ənənələrə istinad etdikdə dəyərli nəticə verə bilər. Bu baxımdan tədqiqat işində nəzərdən keçirilən klassik irs nümunələri və bütövlükdə bədii ənənə müstəqillik dövrü incəsənətinin xarakterizə edilməsi üçün mühüm tarixi-bədii mənbə rolunda çıxış edir.

Mövzunun aktuallığı həm də Azərbaycan dövlətinin mədəni siyasəti ilə birbaşa əlaqədardır. Məlum olduğu kimi Azərbaycan incəsənətinin ən layiqli nümunələri dövlətimiz tərəfindən qayğı ilə mühafizə və təbliğ olunur. Bura həm təsviri sənət, həm də xoreoqrafiya sənəti və onda təzahür edən ayrı-ayrı sahələr – muğam, aşıq yaradıcılığı və s. daxildir. Bütün bunlar mövzunun aktuallığını şərtləndirən əsas amillərdir.

**Mövzunun işlənmə dərəcəsi.** Özlüyündə geniş və aktual problem olan ənənə və müasirlik problemi son yarım əsrdə humanitar və ictimai elmlərin diqqət mərkəzində olmuşdur. Bu problem ayrı-ayrı konkret mövzular daxilində filologiya, fəlsəfə, estetika, kulturologiya, sənətşünaslıq kontekstində nəzərdən keçirilmişdir. Lakin bu, problemin geniş aspektdə işıqlandırılmasıdır. Məsələyə daha konkret müstəvidə yanaşdıqda problemə daxil olan bu və ya digər mövzunun müasir sənətşünaslıqda xeyli dərəcədə öyrənilməsinin şahidi oluruq. Belə ki, sənətşünaslıqda müstəqillik dövrü Azərbaycan incəsənətində ənənə və müasirlik problemi əsasən təsviri sənət, teatrşünaslıq, musiqişünaslıq kimi sahələrdə ətraflı işlənilmişdir. Lakin bu yanaşmanın özü də kifayət qədər genişdir, çünki sənətşünaslığın müxtəlif sahələrini birləşdirir. Ona görə də mövzunun işlənmə dərəcəsi kimi əsasən təsviri sənət və xoreoqrafiya sahələrinin əhatə edilməsi məqsədəuyğundur. Bu baxımdan ilk olaraq professor T.Əfəndiyevin "Mədəniyyətdə tarixilik və müasirlik" (2012) monoqrafiyasını qeyd etmək istərdik.[1] Monoqrafiya həm incəsənətdə ənənə və müasirliyin ardıcıl kontekstdə təhlil edilməsi baxımından, həm də müxtəlif sənət növlərinin bir araya gətirilməsi baxımından hazırkı tədqiqat işi üçün böyük önəmə malikdir. Kitabda incəsənətin başqa növləri ilə yanaşı, təsviri sənət və xoreoqrafiya (musiqi sənəti ilə birlikdə) işıqlandırılır. Əlbəttə, mövzunun işlənilmə dərəcəsi

[1] Əfəndiyev T.İ. Mədəniyyətdə tarixilik və müasirlik. Bakı, "Təhsil", 2011, 390 s.

təkcə sözü gedən kitabla məhdudlaşmır. Lakin digər tədqiqatlarda müasir Azərbaycan incəsənətində ənənə və müasirlik problemi əsasən incəsənətin bir sahəsi nümunəsində nəzərdən keçirilir. Təsviri sənətdə sözü gedən mövzu T.Bayramovun, G.Mirzənin, F.Mir-Bağırzadənin, B.Hacızadənin və başqalarının müxtəlif əsərlərində öz əksini tapır. Misal üçün, T.Bayramov və S.İsgəndərovun "Ənənə və bədii proses" [2] monoqrafiyasında ənənə olaraq klassik Təbriz miniatürləri əsas götürülmüş, həmin bədii irs müasir təsviri sənətdə olan miniatür üslubu və dekorativlik təmayülləri müqayisə edilmişdir. T.Bayramovun "Azərbaycan incəsənəti: postmodernizmdən "teoloji diskurs"a doğru" adlı məqaləsində ənənə və müasirlik münasibətləri son onilliklərdə incəsənətin inkişaf tendensiyaları müstəvisində öyrənilir. [3] Bu mövzuya təsviri sənət sahəsində bəzi digər müəlliflər də müraciət etmişlər. Misal üçün, G.Mirzənin son dövr tədqiqatlarında müasirlikdə ənənə problemi daha çox incəsənətin fəlsəfi-psixoloji qatlarında öz təhlilini tapır. Nəzərdən keçirilən problem onun "Antrop dünya: dünyanın bədii mənzərəsində insan", [4] "Humanizm və "dehumanizasiya", müasir Azərbaycan incəsənətində hissiyyatlılıq və "xaric olunma»" ", [5] "Rəssam və zaman: Tahir Salahov" [6] kimi məqalələrində əsas tədqiqat obyekti kimi çıxış edir.

Xoreoqrafiya sahəsində ənənə və müasirlik problemi bir sıra araşdırmalarda öz əksini tapır ki, bunlardan M.Manafova və A.Zöhrabovanın "Azərbaycanda rəqs və balet sənətinin tarixi inkişafı",[7]

---

[2] Байрамов Т., Искандеров С. Традиция и художественный процесс. Баку, 2002, с. 34-42.

[3] Искусство Азербайджана: от постмодернизма к «теологическому дискурсу» // İncəsənət və Mədəniyyət problemləri (Beynəlxalq elmi jurnal), № 2 (56), Bakı, "Təknur", 2016, s. 82-85.

[4] Мирза Г. Антропный мир: человек в художественной картине мира // Mədəniyyət dünyası (Elmi-nəzəri məcmuə). XV ADMİU, 2008, s. 249-252.

[5] Мирза Г. Гуманизм и «дегуманизация», чувственность и «отчуждение» в современном азербайджанском искусстве // Harmony. International Music Magazine. Выпуск № 7, 2008. Internet. 21 апр. 2008. http: harmony musiqi-dunya.az.

[6] Мирза Г. Художник и время: Таир Салахов // "İncəsənət və Mədəniyyət problemləri" (Beynəlxalq Elmi jurnal), № 2 (56), Bakı, "Təknur", 2016, s. 92-101.

[7] Manafova M., Zöhrabova A. Azərbaycanda rəqs və balet sənətinin tarixi inkişafı // Multikulturalizmin Azərbaycan modeli: tarix, mədəniyyət və incəsənət mövzusunda IV Respublika elmi-praktiki konfransın materialları, Bakı, "Səda", 2016, s. 83-89.

J.Qulamovanın “Firəngiz Əlizadənin balet musiqisi Qərb mədəniyyəti qovşağında”,[8] E.Cəfərovanın “Azərbaycan xalq səhnə rəqslərinin inkişafı və formalaşmasında Roza Cəlilovanın yaradıcılığının təsiri” [9] və başqalarını göstərmək olar. Xoreoqrafiya sənəti musiqi yaradıcılığı ilə bağlı olduğundan bir sıra tədqiqatçılar incəsənətdə ənənə və müasirlik problemini musiqişünaslıq müstəvisində nəzərdən keçirir ki, bu da hazırkı dissertasiya üçün böyük maraq doğurur. Tədqiqat işində xoreoqrafiya sənəti əsasən muğam və aşıq sənəti ilə əlaqələndirildiyindən bu iki sahə diqqəti daha çox cəlb edir. Bu tipli tədqiqatlardan R.Hüseynovun “Şərq muğamı və qərb musiqi formalarının qovuşmasından Azərbaycan mədəniyyətinin yaratdığı yeni modellər”, [10] Rəna Məmmədovanın “Azərbaycan muğamı incəsənətin növlərarası kontekstində”, [11] S.Fərhadovanın “Azərbaycan muğamının elmi nailiyyəti: keçmişdən gələcəyə doğru», [12] Ü.Talıbzadənin “Azərbaycan muğamına dövlət qayğısı”, Z.Axundova-Dadaşzadənin “Muğam və müasir Azərbaycan simfonizmi: axtarışlar, itkilər, tapıntılar” [13] və bəzi başqaları daha çox maraq doğurur. Nəhayət, iddiaçının özü həmin mövzuda məqalələrlə çıxış etmişdir ki, bunlardan “Müstəqillik dövrü Azərbaycan incəsənətində ənənə və müasirlik”, [14] “Müstəqillik dövrü Azərbaycan

---

[8] Qulamova J. Firəngiz Əlizadənin balet musiqisi Qərb mədəniyyəti qovşağında // Sənət akademiyası (elmi-nəzəri jurnal) № 1 (3) 2017, s. 58-62

[9] Джафарова Э.Л. Влияние творчества Розы Джалиловой на развитие и становление азербайджанского народного сценического танца) // “Sənət akademiyası” (elmi-nəzəri jurnal, № 1 (3), 2017, s. 12-14.

[10] Hüseynov R.B. “Şərq muğamı və qərb musiqi formalarının qovuşmasından Azərbaycan mədəniyyətinin yaratdığı yeni modellər // “Muğam aləmi” V Beynəlxalq festivalı çərçivəsində keçirilən “Azərbaycanda muğam elmi: reallıqlar və perspektivlər” mövzusunda elmi simpoziumun materialları, Bakı, 2018.

[11] Məmmədova R.A. Azərbaycan muğamı incəsənətin növlərarası kontekstində // “Muğam aləmi” V Beynəlxalq festivalı çərçivəsində keçirilən “Azərbaycanda muğam elmi: reallıqlar və perspektivlər” mövzusunda elmi simpoziumun materialları, Bakı, 2018.

[12] Talıbzadə Ü. Azərbaycan muğamına dövlət qayğısı // “Azərbaycan muğamşünaslığı: problemlər, perspektivlər” kitabında. Bakı, “Təknur”, 2015.

[13] Axundova-Dadaşzadə Z. Muğam və müasir Azərbaycan simfonizmi: axtarışlar, itkilər, tapıntılar // “Azərbaycan muğamşünaslığı: problemlər, perspektivlər” kitabında. Bakı, “Təknur”, 2015.

[14] Muradova N.A. Müstəqillik dövrü Azərbaycan incəsənətində ənənə və müasirlik // İncəsənət və mədəniyyət problemləri (Beynəlxalq elmi jurnal), 2017, № 1 (59), s. 99-104.

təsviri sənətində ənənə və müasirliyin qarşılıqlı əlaqələri”, [15] “Yaradıcılıq prosesi: ənənədən müasirliyə doğru (müstəqillik dövrü Azərbaycan təsviri sənəti nümunəsində)”, [16] “Azərbaycan baleti: ənənə və müasirliyin kəsişməsində (Q.Qarayevin “Yeddi gözəl” baletinin quruluşları nümunəsində)” [17] və başqalarını xatırlatmaq olar.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti kimi klassik və müasir dövrdə Azərbaycan təsviri sənətində və xoreoqrafiyasında yaradılmış müxtəlif əsərlər çıxış edir. Bu əsərlərdə bədii təfsir xüsusiyyətləri, klassik opera və balet nümunələrinin müstəqillik dövründə yeni quruluşda təqdim edilməsi məsələləri tədqiqat işində öz əksini tapır.

Tədqiqatın predmetini təsviri sənət və xoreoqrafiyada ənənə və müasirliyin qarşılıqlı münasibətləri təşkil edir. Bu münasibətlər bədii üslub, milli simvolika, həmçinin milli özünüdərk, multikultural dəyərlər müstəvisində işıqlandırılır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi müstəqillik dövründə Azərbaycan təsviri sənəti və xoreoqrafiyasında ənənə və müasirliyin qarşılıqlı münasibətlərinin öyrənilməsidir. Bu məqsədlə dissertasiyanın qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur:

- Müasir dövr incəsənətində ənənə və müasirliyin ümumi xarakterinin müəyyən edilməsi;
- Mütərəqqi ənənənin müasir insəcənətə təsiririn öyrənilməsi;
- Müstəqillik dövrü incəsənətinin ideya-bədii xüsusiyyətlərinin araşdırılması;
- İncəsənət əsərlərinin bədii-estetik cəhətlərində, kompozisiya və tematikasında milli simvolikanın rolunun müəyyən edilməsi;
- Müasir dövr Azərbaycan təsviri sənətinin inkişafında ənənənin rolunun öyrənilməsi;

[15] Muradova N.A. Müstəqillik dövrü Azərbaycan təsviri sənətində ənənə və müasirliyin qarşılıqlı əlaqələri // “Sənət akademiyası” (elmi-nəzəri jurnal, № 1 (3), 2017, s. 40-47.

[16] Muradova N.A. Yaradıcılıq prosesi: ənənədən müasirliyə doğru (müstəqillik dövrü Azərbaycan təsviri sənəti nümunəsində) // (ADMIU). Mədəniyyət dünyası XXXIV buraxılış. Bakı, 2017, s. 203-211

[17] Muradova N.A. Azərbaycan baleti: ənənə və müasirliyin kəsişməsində (Q.Qarayevin “Yeddi gözəl” baletinin quruluşları nümunəsində) // Musiqi dünyası, №4/73, 2017, s. 70-74.

- Xoreoqrafiya sənətinin inkişafında bədii üslub və bədii ənənənin əhəmiyyətinin vurğulanması, onun konkret nümunələrdə (səhnə əsərlərində və bədii tərtibatda) öz əksini tapması;

- Milli-mənəvi dəyərlər, müasirlik və multikultural təfəkkür müstəvisində təsviri sənət və xoreoqrafiyanın ortaq xüsusiyyətlərinin təcəssümü.

**Tədqiqatın metodoloji əsasını** təsviri sənət və xoreoqrafiya əsərlərinin müqayisəli təhlili təşkil edir. Təsviri sənətdən danışarkən ayrı-ayrı rəssamların əsərləri təhlil edilir, bu əsərlərdə bədii ənənənin rolu müəyyənləşdirilir. Xoreoqrafiyaya gəlincə, burada təhlil şaxələndirilmiş formada aparılır. Çünki səhnə sənəti olan xoreoqrafiya sintetik sənət növlərinə aiddir. Burada plastika ilə yanaşı musiqi, mətn, kostyum və s. vardır. Eyni zamanda müəyyən bir əsərin (misal üçün, Q.Qarayevin "Yeddi gözəl" baletinin) müxtəlif dövrlərdəki (klassik və müasir) quruluşları da müqayisəli təhlilin predmetinə çevrilmişdir. Təhlil obyekti müxtəlif sənət sahələrini əhatə etdiyindən burada ümumnəzəri sənətşünaslıq prinsipinin tətbiqi metodoloji baxımdan daha əlverişlidir. Bu prinsip həm də tədqiqat işinin ixtisası ilə də (6203.01- "İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi") uzlaşır. Beləliklə, tədqiqatın metodologiyasının əsasında müqayisəli və ümumnəzəri təhlil metodları dayanır.

**Tədqiqat işinin xronoloji sərhədləri.** İncəsənətdə ənənə və müasirliyin münasibətləri problemi istənilən halda özündə klassik və çağdaş münasibətlər sistemini ehtiva edir. Müasirliyin xronoloji sərhədləri nisbətən aydın olduğu halda (hazırkı dissertasiyada bu mərhələ Azərbaycanın müstəqillik dövrünü əhatə edir), bədii ənənələr formalaşdırmış klassik dövrün məhz hansı mərhələləri əhatə etməsi fərqlidir. Bundan başqa, hər bir incəsənət sahəsinin öz dövrü vardır. Təbii ki, yaşı min illərlə ölçülən teatr sənəti ilə XIX əsrin sonlarında təşəkkül tapmış kino sənətinin klassik dövrlərini xronoloji baxımdan eyniləşdirmək olmaz. Konkret olaraq dissertasiyada əsasən son yüz ilin bədii təcrübəsi əhatə edilmişdir. Bu, təbii ki, rəssamlıq sənətinə aiddir. Tədqiqata cəlb edilmiş erkən rəssamlıq nümunələri XX əsrin əvvəllərində yaradılmışdır. Xoreoqrafiyaya gəlincə, burada xronologiya daha qısa zaman kəsimini əhatə edir. Onun klassik mərhələsini ötən əsrin 30-80-ci illəri (balet sənətinin təşəkkül və klassik inkişaf dövrləri), müasir dövrünü isə müstəqillik illəri təşkil edir.

**Tədqiqatın elmi yeniliyi** özünü onda büruzə verir ki, əvvəla, burada ilk dəfə olaraq incəsənətdə ənənə və müasirlik problemi iki sahə üzrə müqayisəli təhlil formasında öz əksini tapır. İkincisi, dissertasiyada

xoreoqrafiya sənətinin təhlili ümumiləşdirilmiş nəzəri kontekstdə aparılır. Belə ki, burada problem həm plastika, həm bədii tərtibat, həm musiqi, həm də bədii-estetik baxımdan nəzərdən keçirilir. Dissertasiya işindəki elmi yeniliyi aşağıdakı müddəalar şəklində ifadə edə bilərik:

- Tədqiqat işində ilk dəfə olaraq xoreoqrafiya sənəti incəsənətin nəzəriyyəsi, təhlili və tənqidi müstəvisində öyrənilir;
- Dissertasiyada iki sahə - təsviri sənət və xoreoqrafiya qarşılıqlı surətdə əhatə olunur;
- Tədqiqat işində milli simvolikanın əhatəli təfsiri öz əksini tapır və onun ayrı-ayrı elementləri tədqiqat obyektinə çevrilir;
- Tədqiqatda bir çox əsərlərin təhlili həm milli xarakter, həm də multikultural dəyərlər müstəvisində nəzərdən keçirilir. Qeyd olunur ki, hər iki xüsusiyyət həm ötən dövrlərdə, həm də müasir dövrdə incəsənətdə mövcud olmuşdur. Bu baxımdan bu iki cəhət ənənə və müasirlik kontekstində işıqlandırıla bilər və işıqlandırılır;
- Dissertasiyada ilk dəfə olaraq təsviri sənət və xoreoqrafiya göstərilən elmi problem kontekstində bir-biri ilə əlaqələndirilmişdir;
- Dissertasiyaya əlavə edilmiş albomda hər iki sahəyə aid şəkillər toplanmışdır. Xoreoqrafiyaya aid şəkillər həm ümumnəzəri müstəvidə şərh edilir, həm də səhnənin bədii tərtibatı baxımından əhəmiyyət daşıyır və rəssamlıq sənəti ilə əlaqələndirilir.

**Tədqiqatın nəzəri-praktiki əhəmiyyəti.** Vurğulandığı kimi, dissertasiyada müstəqillik dövründə incəsənətdə ənənə və müasirlik münasibətləri araşdırılır. Bu münasibətlər müxtəlif kontekstlərdə - bədii üslub, forma və məzmun, bədii-estetik xüsusiyyətlər müstəvisində işıqlandırılıb. Eyni zamanda bütün bunlar incəsənətin iki növü – təsviri sənət və xoreoqrafiya sahəsində nəzərdən keçirilib. Qeyd olunan bu cəhətlər tədqiqat işinin nəzəri bazasını təşkil edir.

İşin praktik əhəmiyyətinə gəlincə, demək vacibdir ki, incəsənətin iki növünü əhatə etdiyindən onun istifadə sahəsi daha böyük ola bilər. Dissertasiyadan əsasən təhsil, həmçinin elmi-nəzəri məqsədlə yararlanmaq olar. Onun rəssamlıqla əlaqədar olan hissəsindən Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində tədris və metodiki vasitə kimi istifadə edilə bilər. Həmçinin dissertasiyanın xoreoqrafiya sənətinə aid olan hissəsindən dərs vəsaiti kimi müxtəlif ali məktəblərdə - Bakı, Xoreoqrafiya Akademiyasında, Bakı Musiqi Akademiyasında, Azərbaycan Milli Konservatoriyasında istifadə etmək olar.

**Dissertasiyanın aprobasiyası.** Tədqiqat işi Bakı Xoreoqrafiya Akademiyasının "Sənətşünaslıq" kafedrasında yerinə yetirilmişdir. Onun əsas müddəaları iddiaçı tərəfindən müxtəlif elmi jurnallarda (o cümlədən xaricdə) nəşr etdirilmiş 7 məqalədə öz əksini tapıb. İddiaçı mövzu ilə əlaqədar elmi konfranslarda məruzə ilə də çıxış etmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, altı yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından və albomdan ibarətdir. Dissertasiyanın əsas məzmunu 150 səhifə həcmində olan kompüter yığımında əks olunub. Albom ayrıca cilddə təqdim olunur.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın işlənmə dərəcəsi, elmi yeniliyi, məqsəd və vəzifələri, metodologiyası və s. barədə məlumatlar öz əksini tapmışdır.

Dissertasiyanın I - fəsli **"Bədii proseslərin inkişafında mədəni irsin rolu"** adlanır. O, iki yarımfəslə bölünür. Birinci yarımfəsil **"Müstəqillik dövrü incəsənətində ənənə və müasirlik"** adlanır. Burada ana problemin əsas tarixi-metodoloji xüsusiyyətləri nəzərdən keçirilir.

Azərbaycan incəsənətində ənənə və müasirlik probleminin dərin kökləri vardır. Hələ orta əsrlər dövründə təşəkkül tapmış memarlıq, miniatür və xalça məktəbləri sonralar milli bədii mədəniyyətin inkişafında ilkin baza rolunu oynamışdır. Avropa incəsənətinin təsiri ilə XIX əsrin sonu – XX əsrin əvvəllərində realist sənətin bərqərar olması da mövcud ənənələrin genetik yaddaş səviyyəsində təsirinin təzahürü kimi dəyərləndirilə bilər. "XIX yüzilliyin əvvəllərində Şimali Azərbaycanın Rusiya tərəfindən işğal olunması nəticəsində müstəmləkəçilik siyasəti şiddətlənsə də, milli mədəniyyətimizin və incəsənətimizin inkişafında keyfiyyət etibarilə yeni mərhələ başlayır. Hər iki ölkənin siyasi və iqtisadi həyatında baş verən dəyişikliklər incəsənətin də yeni istiqamətdə inkişafına təkan verir". [18] Zəngin tarixi irs yeni ictimai-siyasi və mədəni şəraitdə də incəsənətin inkişafını təmin edirdi.

1991-ci ildə sovet dövlətinin çökməsi və kommunizm ideyalarının süquta uğraması ilə milli mədəni ideologiyanın formalaşmasında yeni tarixi dövr meydana gəldi. Bu zamandan etibarən bədii mədəniyyətdə ənənə və müasirlik qarşılıqlı münasibətlərinin yeni ictimai-siyasi müstəvidə nəzərdən keçirilməsinə başlanıldı.

---

[18] Əfəndi R.S. Azərbaycan incəsənəti. Bakı, "Çaşıoğlu", 2001, s 197.

Şübhəsiz ki, müstəqilik dövrü milli mədəni ideologiyasının əsasında ənənələrə müasirlik prizmasından yanaşılma prinsipi dayanır. “Azərbaycan XIX-XX əsrlərdə Çar Rusiyasının və Sovet İttifaqının tərkibində olsa da, öz milli-mənəvi varlığını qoruyub saxlamış, ölkədə maarifçilik və mədəniyyət daim inkişaf etdirilmişdir. Görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyev XX əsrin 70-ci illərindən XXI əsrin əvvəllərinə qədər Azərbaycanı çətin sınaqlardan çıxararaq böyük sürətlə inkişaf etdirmişdir. Hazırda müstəqil Azərbaycan dövləti dünya birliyində mühüm yer tutan əhəmiyyətli bir ölkəyə çevrilmişdir”. [19] Əgər incəsənətin ayrı-ayrı sahələrinə nəzər yetirsək, görərik ki, onun ideya-bədii əsasını milli xarakteri və özünəməxsusluğu saxlamaqla bəşəri dəyərlərə inteqrasiya xüsusiyyətləri təşkil edir.

Müstəqillik dövründə Azərbaycan incəsənətində ənənə və müasirlik qarşılığı bir neçə əsas aspektdə özünü büruzə verir. Bunlardan aşağıdakıları qeyd edə bilərik:

- Milli-azadlıq mövzusu;
- Qarabağ mövzusu;
- Qəhrəman tarixi keçmiş;
- Milli-adət və ənənələr;
- Milli xarakter və milli landşaft;
- Azərbaycanın tərəqqisi və rifahı.

İlk iki mövzu istisna edilməklə digər mövzular XX əsr Azərbaycan incəsənətində, xüsusən 50-80-ci illər rəssamlığında yetərincə öz əksini tapmışdır. S.Bəhlulzadənin milli xarakterlə zəngin olan mənzərələri, T.Nərimanbəyovun İçərişəhər, folklor tematikası, V.Səmədovanın milli adət və ənənələri əks etdirən zəngin koloritli tabloları, bir sıra rəssamların (misal üçün S.Şərifzadənin) qəhrəman tarixi keçmişin təcəssüm olunduğu əsərləri buna misal ola bilər. Müstəqillik illərində (daha doğrusu artıq 80-ci illərin sonlarından etibarən) bu siyahıya milli-azadlıq və Qarabağ mövzuları da əlavə edilmiş, müasir incəsənətin ənənələrə istinad edən maraqlı nümunələri yaradılmışdır. [20]

Maraqlıdır ki, sənətdə ənənə və müasirlik münasibətləri hətta bir rəssamın yaradıcılığının müxtəlif mərhələlərində belə əks olunur. Müasir dövrün dünyasını dəyişmiş və ya indi də yaşayıb-yaradan rəssamlarının

---

[19] Həbibbəyli İ., Muradov V. Naxçıvan xalçaçılığı: ənənə və müasirlik. Bakı, Elm, 2017, s 13.

[20] http://azerinfo.eu/tesviri_incesenet.html

yaradıcılığı buna misal ola bilər. T.Salahov, M.Abdullayev, O.Sadıqzadə, T.Nərimanbəyov, B.Mirzəzadə, A.Mehdiyev, A.Hüseynov və başqalarının son dövr yaradıcılığı dövrün aktual mövzularını əks etdirərək müasir milli tematikanı yeni, bir sıra hallarda onların yaradıcılığı üçün xarakterik olmayan əsərlərlə zənginləşdirmişdir. Nümunə olaraq qocaman nəslə mənsub rəssamların son dövr yaradıcılığına aid 20 yanvar, Qarabağ faciələri mövzusunda yaratdıqları kompozisiyaları göstərmək mümkündür.

Ənənə və müasirliyin bir rəssamın yaradıcılığının müxtəlif mərhələlərindəki təzahür formaları M.Abdullayevin sənətkarlıq fəaliyyətinə də xasdır. Azərbaycan təsviri sənətinin inkişafında müstəsna xidmətləri olan M.Abdullayev zəngin milli koloritə malik tematik tabloları, portretləri, mənzərə əsərləri ilə geniş şöhrət qazanmışdır. Eyni zamanda yaradıcılığının son mərhələsində rəssam milli təəssübkeşliyinin təsiri və qəlbinin hökmü ilə yaradıcılığı üçün xarakterik olmayan milli-azadlıq tematikasına müraciət etmişdir. Rəssamın "Bakı müsibəti" (1990) adlı əsərində 20 yanvar şəhidlərinin dəfn olunmağa aparılması səhnəsi öz əksini tapır. Halbuki rəssamın ənənəvi tematikası üçün milli-azadlıq mübarizəsinin təsviri xarakterik olmayıb. Tamamilə aydındır ki, ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərindəki hadisələr qocaman rəssamın tematikasında həmin dövrün reallıqları ilə səsləşən tabloların ərsəyə gəlməsinə zəmin yaratmışdır.

Əsası az qala bir əsr öncə qoyulmuş, ötən əsrin 60-80-ci illərində böyük yaradıcılıq yolu keçmiş Azərbaycan peşəkar xoreoqrafiya sənəti ənənələrə istinad etməklə müasir milli rəqs ifaçılığını inkişaf etdirir. Bu gün Azərbaycan rəqqaslarının yaradıcılıq nailiyyətləri bütün dünyanın diqqətini cəlb etməkdədir. Azərbaycan rəqqasları mühüm dövlət tədbirlərində yaxından iştirak edirlər. Bu yaxınlarda keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarının bədii proqramına Bakı Xoreoqrafiya Akademiyasının kollektivi də cəlb edilmişdi. Bədii proqramda milli rəqs nümunələri ilə yanaşı, ayrı-ayrı müsəlman ölkə və xalqlarını təmsil edən rəqslər, geyim nümunələri tədbir iştirakçıları və qonaqlar tərəfindən böyük maraqla qarşılandı. Bu, həm də Azərbaycan cəmiyyətinin demokratik inkişafını, tolerantlığını, multikultiral dəyərlərə hörmətlə yanaşdığını nümayiş etdirən bir mədəniyyət nümunəsi idi. Belə ki, müxtəlif millətlərin rəqslərini ifa edən rəqqaslarımız həm də multikulturalizmin Azərbaycan modelini bütün dünya qarşısında nümayiş etdirdilər. Ənənələrə istinad edən milli rəqs sənəti müasir görüşlərin təsiri ilə yeni xüsusiyyətlər qazandı. Bununla da zəngin tarixi keçmişin müasir görüşlərlə təmas qurmasının daha bir nümunəsi gözlərimiz önündə canlandı.

I - fəslin ikinci yarımfəsli **“İncəsənətdə milli simvolika və milli məzmun”** adlanır. Yarımfəslin əsas məzmununu təsviri sənətin milli xüsusiyyətləri və onların təzahür formaları təşkil edir.

Bədii mədəniyyətdə ənənə və müasirliyin qarşılıqlı münasıbətlərinə diqqət yetirdikdə, bədii simvolun böyük əhəmiyyət daşıdığı üzə çıxır. Bədii simvol rəssamlıq və xoreoqrafiya ilə yanaşı, incəsənətin digər sahələrində də özünü büruzə verir (ümumiyyətlə, bədii simvol anlayışı sənət növü anlayışının fövqündədir). Yuxarıda ənənə və müasirlik münasibətləri bir qədər yığcam şəkildə rəssamlıq və xoreoqrafiya sənəti müstəvisində nəzərdən keçirilmişdi. Maraqlıdır ki, Azərbaycan bədii mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan milli simvollar əsasən vizual və musiqili formalarda göz önünə gəlir (vizual forma dedikdə, görmə vasitəsilə qavranılan forma nəzərdə tutulur ki, bu da rəssamlıqla yanaşı, həm də aktyor ifası, jestlər, mimika vasitəsilə gerçəkləşdirilir). Zənnimizcə, milli simvol dedikdə, ən azı aşağıdakıları qeyd etmək vacibdir:

- Coğrafi (məkan xarakterli) simvollar;
- Tarixi-memarlıq xarakterli simvollar;
- Epik (folklor) abidələr və qəhrəmanlar;
- Məişət (əşya) xarakterli simvollar.

Qeyd edək ki, bu bölgüyə daxil olan simvollar bəzi hallarda bədii əsərdə birlikdə diqqətə çatdırılır və əsərin ideya-bədii xəttinin formalaşmasında kompleks halda iştirak edir. Misal üçün, “Koroğlu” operasında həm folklor abidəsi və onun qəhrəmanları, həm tarixi abidələr, həm də milli məişət əşyaları və musiqi birlikdə iştirak edir.

Qeyd olunan milli simvollara aşağıdakıları aid etmək olar:

Coğrafi (məkan xarakterli) simvollardan Qobustan, Çənlibel, Xəzər, Neft Daşları, bir qədər mücərrəd (ümumi) formada dağlar (Qarabağ dağları), çaylar (Kür, Araz), göllər (Göyçə gölü) və s. göstərmək olar.

Tarixi-memarlıq simvolları daha çoxdur. Onlardan daha vacib olanı və bədii mədəniyyətdə geniş yayılanı (milli bədii simvol olaraq) Qız qalası (və ümumiyyətlə İçərişəhərin digər əsas abidələri – Şirvanşahlar sarayı və onun əsas komponentləri, məscidlər, darvazalar, qala divarları, bürclər və s.), Abşeron (Ramana, Mərdəkan və s.) qalaları, Naxçıvanda Möminə xatun və Yusif ibn Küseyr türbələri, Şuşada Gövhər ağa məscidi (aşağı və yuxarı məscidlər) və qala divarları, Şəkidə xan sarayı, Gəncə və Bərdə İmamzadələri, körpülər, hamamlar, karvansaralar və s.-dir.

Epik (folklor) abidələri və qəhrəmanlar əsərdə milli simvolikanı təkcə əks etdirmirlər, həm də onun məzmununu, qəhrəmanları (surətləri) təcəssüm etdirirlər və deməli, bilavasitə süjet yaradırlar. Bunlardan Dədə

Qorqud eposunu, Koroğlu, Aşıq Qərib dastanlarını, Leyli və Məcnun ədəbi nümunəsini göstərmək olar. Təbii ki, buradakı müsbət (bəzən hətta mənfi) qəhrəmanların böyük əksəriyyəti surət olaraq milli simvolikanın zənginləşməsinə xidmət edir və milli xarakteri təcəssüm etdirir.

Məişət (əşya) xarakterli simvollara gəlincə, onların sayı xeyli artıq olub əsasən milli məişəti və onun çoxsaylı atributlarını əks etdirir. Belə atributlardan (əşyalardan) Azərbaycan xalçalarını və musiqi alətlərini, azərbaycanlı məişətini, məişətdə istifadə olunan müxtəlif əşyaları (mütəkkə, sərnic, satıl və s.), zərgərlik nümunələrini, xarakterik xörək növlərini, şirniyyatı və meyvələri qeyd etmək mümkündür. Həm rəssamlar, həm də xoreoqrafik əsərə tərtibat verən mütəxəssislər (rejissor və baletmeysterlər) məişət (əşya) xarakterli simvollardan istifadə edirlər. Müstəqillik dövrü opera və balet sənətində milli simvolikanın bu və ya digər dərəcədə, vizual simvollar vasitəsilə təcəssüm olunmadığı əsər (quruluş) tapmaq çətindir. Bu cəhət milli xarakter və məzmunun açılmasında simvolikanın rolunu bir daha təsdiqləyir.

80-ci illərin sonundan etibarən təsviri sənətdə milli tematik istiqamət öz mövqeyini tədricən milli-dekorativ formalara verməyə başladı. 70-ci illərin populyar mövzularının ideyaca iflasa uğraması şəraitində milli tematikanın maraqlı özünüifadə forması olan milli-dekorativ mövzular, milli simvolika meydana çıxdı. Beləliklə, təsviri sənətdə milli tematikanın yeni inkişaf forması təşəkkül tapdı. Eyni zamanda burada miniatürçülüyə meyl, kompozisiya baxımından sadə ifadə formaları, dekorativlik, simvolikadan geniş istifadə edilməsi özünü aydın göstərirdi.

İstedadlı rəssam A.Hüseynovun yaradıcılığında milli məişət və tematika zəngin dekorativ formaları ilə diqqəti cəlb edir. Rəssamın 2000-ci illərdə yaratdığı bir çox rəsmlərdə milli tematika məhz rəmzlər formasında özünü büruzə vermişdir. “Aya səyahət”, “Nar qız”, “Od çərşənbəsi”, “Qulaq falı” kimi rəsmlərdə milli məişət detallar, simvollar formasında təzahür edir.

Milli tematika xoreoqrafiya sənətində müxtəlif formalarda təzahür edir. “Qız qalası”, “Qobustan kölgələri”, “Xəzər haqqında ballada”, “Eşq və ölüm” və başqa baletlərdə milli xarakter güclüdür. Balet tamaşalarının hətta adlarının milli simvolikaya xidmət etdiyini aydın görmək olar.

Dissertasiyanın II - fəsli **“Təsviri sənətdə ənənə və müasirliyin qarşılıqlı əlaqələri”** adlanır. Bu fəsil də iki yarımfəsli özündə birləşdirir. Birinci yarımfəsil **“Rəssamlıqda tematika və üslub milli təfəkkürün daşıyıcısı kimi”** adlandırılmış və mövzu vasitəsilə milli düşüncənin

təfsirinin təcəssümü probleminə həsr edilmişdir. Burada həmin problem təsviri sənətin rəngkarlıq və qrafika növlərində nəzərdən keçirilir.

Xalq rəssamı A.Hüseynovun bir çox əsərlərində folklor surətləri təsvir olunur ki, bu da milli xarakterin simvolik təzahür formasıdır. Belə əsərlərdən biri “Göyçək Fatma” adlanır (2010). Süjeti Azərbaycan xalq nağıllarından götürülən bu kompozisiyada dekorativlik əhvali-ruhiyyəsi güclüdür. Kompozisiyanın mərkəzində simvolik surətlər – ağ atlı oğlan, Göyçək Fatma, balıq və at təsvir olunmuşdur. Əsərin dekorativ xarakterli bədii elementləri bu dörd surəti əhatə edir. Dekorativ bəzək elementləri təkcə ara sahələri deyil, əsərdə təsvir olunan surətlərdə də nəzərə çarpır. Belə ki, əli qılınclı qəhrəmanın, Göyçək Fatmanın geyimləri, atın və balığın bədəni kiçik bəzək elementləri ilə işlənmişdir. Səmadakı buludlar və onların arasındakı aşıq sahələrdə nəzərə çarpan ulduzlar da rəmzi-dekorativ xarakter daşıyır. A.Hüseynovun “Nar qız” (2013) əsərində də milli simvolika güclüdür. Kompozisiyanın mərkəzində milli görünüşlü gənc oğlan təsvir olunub. O, əllərində parçalanmış nar tutmuşdur. Narın içindən milli geyimli, başı ağ örpəkli, qara saçlı qız boylanır. Narın içində çox kiçik miqyasda İçərişəhərin xarakterik tikililəri – məscidlər, minarələr, Şirvanşahlar sarayının portalı görünür. Qırmızı rəngli bu kiçik evlərdən yuxarıda nar dənəcikləri nəzərə çarpır. Kompozisiyanın əsas surəti olan oğlanın sağında və solunda qara fonda rəssam iki qırmızı simurq quşunun təsvirlərini vermişdir.

Müasir Azərbaycan rəssamlıq sənətində ənənə və müasirlik münasibətləri müxtəlif formalarda öz ifadəsini tapır. Əlbəttə, milli adət və ənənələrin təcəssüm olunması, qədim Bakı görüntüləri bu sahədə öncül yerlərdən birini tutur. Qədim Bakı təsvirləri belə demək mümkünsə, universal xarakter daşıyır. İstər tarixi-memarlıq abidələrinin, istər məişət etnoqrfizminin, istərsə də milli bayramların təcəssüm etdirilməsi baxımından qədim Bakı mövzusu ötən onilliklərdə olduğu kimi, bu gün də rəssamların diqqət mərkəzindədir.

Bu baxımdan Azərbaycan incəsənətinin qocaman təmsilçilərindən olan Xalq rəssamı Cəmil Müfidzadənin yaradıcılığı diqqəti cəlb edir. C.Müfidzadə elə rəssamlardandır ki, onun yaradıcılığını ayrı-ayrı tematikalara bölmək olar. Bunlardan biri də köhnə Bakı seriyasıdır. Rəssam bu seriyaya aid ilk qrafik əsərlərini hələ ötən əsrin 60-cı illərində yaratmağa başlamış, sonrakı illərdə, o cümlədən müstəqillik dövründə davam etdirmişdir. [21]

---

[21] Əliyev Z.A. Cəmil Müfidzadə. Cizgilərə hopan ömür. Bakı, “Oskar”, 2011, s. 15.

C.Müfidzadə özünəməxsus dəst-xəttə, rəng duyumuna malik sənətkardır. Onun əksər qrafik tablolarında rənglərdən çox az istifadə olunub. Burada rəssam öz fikirlərini, əsərin ideya-bədii məzmununu rənglərin deyil, forma və üslubun, obrazların zahiri görünüşü, hərəkətləri, üz cizgiləri vasitəsilə əks etdirir. Bunun əksinə olaraq C.Müfidzadənin zəngin koloritli rəngkarlıq tabloları da vardır. Bu şəkillər arasında qədim Bakı tematikasına da rast gəlinir.

Qrafika sahəsində milli simvolizmin maraqlı nümunələrini Əməkdar rəssam Yusif Mirzə yaratmışdır. [22] Onun özünəməxsus dəst-xətti ilə seçilən tablolarında ənənə və müasirlik münasibətləri yeni müstəvidə qarşımıza çıxır. Yusif Mirzənin yaradıcılıq dəst-xətti üçün müəyyən mənada avanqard üslub səciyyəvidir. Rəssam fiqurativ formalara, həndəsi elementlərə və rəmzi işarələrə üstünlük verir. Bütün bunlar daha çox avanqard sənət və onun ayrı-ayrı istiqamətlərinə xas olan xüsusiyyətlərdir. Lakin rəssam bütün bunları milli tematika müstəvisində əks etdirir. Belə demək mümkündür ki, onun dəst-xətti avanqard sənətdən, süjetləri isə rəmzlərin üstün olduğu milli tematikadan qaynaqlanır.

Rəssamın fiqurativ xarakterli "Görüş" kompozisiyası (2013) sadə quruluş və rəng həlli ilə yadda qalır. Əsərdə aylı gecədə gənc oğlan və qızın görüşü təsvir olunur. Hər iki surətin görünüşü fiqurativ olmaqla həm də şərti xarakter daşıyır. Rəssam hər iki surətin bədənini xətlərlə əvəz etmişdir. Lakin bunlar sadəcə xətt olmayıb Qobustan qaya rəsmlərindən bizə məlum olan insan təsvirlərini xatırladır.

Tanınmış rəssam Elşən Hacızadənin yaradıcılığında ənənə və müasirliyin özünəməxsus vəhdətinin təzahürləri ilə qarşılaşırıq. Rəssamın yaradıcılığında milli xarakter və məzmun müasirlik müstəvisində təqdim olunur. Bu baxımdan onun "Azərbaycan himni" əsəri (2006) olduqca xarakterikdir. Əsərdə üç azərbaycanlı qızın Azərbaycan himnini oxuması təsvir olunub. Tablo ənənə və müasirliyi müxtəlif kontekstlərdə əks etdirir. Qızların əynində milli geyim vardır ki, bu da ənənənin təzahürüdür. Eyni zamanda qızlar məhz müasirliyi təmsil edirlər. Bu cəhət onların xorla ifa etdikləri himndə öz əksini tapır. Nəhayət, kompozisiyanın əsas elementi kimi ölməz Üzeyirbəyin arxadan görünən surətini qeyd etmək lazımdır. Rəssam onu canlı olaraq qızların arxasında dayanmış halda əks etdirməyib. Əks təqdirdə bu, ya tarixi, ya da mücərrəd ruhlu əsər olardı. Halbuki əsərə ümumilikdə müasirlik ruhu hakimdir. Qızarın ifa etdiyi himn məhz müasirliyi özündə ehtiva edir. Rəssam arxa planda iri, ağ-göy və boz

[22] http://www.kulis.az/m/news/18178

tonlarla işlənmiş medalyon təsvir edib. Üzeyirbəyin barelyefi xatırladan siması məhz bu medalyonun səthində işlənib. Onun mehriban baxışları bir qədər kənara dikilmişdir; böyük bəstəkar sanki on illər sonra dünyaya gələcək nəsillərin müstəqil Azərbaycan dövlətinin himnini ifa etdiyini eşidərək məmnunluq hissi keçirir... Beləliklə, əsərdə ənənə və müasirlik münasibətləri həm də kompozisiyanın quruluşunda, onun ideya-bədii xüsusiyyətlərində öz əksini tapır.

**"Heykəltəraşlıqda milli xarakterin bədii təcəssüm formaları"** adlanan ikinci yarımfasildə milli xarakter plastik sənətlər nümunəsində təfsir edilir.

Müstəqillik illərində baş vermiş dəyişikliklər heykəltəraşlıqda özünü qabarıq əks etdirir. Milli mədəniyyət və mentalitetimizin, dövlətçilik və azərbaycançılıq ideyalarının daşıyıcısı olan monumental sənət istər forma, ölçü və faktura, istərsə də məzmun və süjet baxımından xeyli dəyişmiş, yenilənmişdir. Müstəqillik illərində Sovet ideologiyasına xidmət edən heykəllər götürülmüş, onların yerinə milli-vətənpərvərlik ideyalarını əks etdirən şəxsiyyətlərin, həmçinin dünya tarixi və mədəniyyətinin görkəmli simalarının heykəlləri ucaldılmışdır. Əslində bütün postsovet məkanında müşahidə olunan bu tendensiya Azərbaycan monumental sənəti üçün də xarakterikdir.

Müstəqillik dönəmində Bakı ilə yanaşı, bölgələrdə də çoxlu yeni bağ-park ansamblları yaradılmış, yeni monumental heykəllər ucaldılmışdır. Bu gün Gəncə, Naxçıvan, Şəmkir, Mingəçevir, Sumqayıt, Naftalan, Ordubad, Şamaxı, Cəlilabad kimi şəhərlərdə qoyulmuş monumental heykəllər istər ölçü, istərsə də ideya-bədii baxımdan paytaxt abidələrindən geri qalmır.

Son dövrlərdə respublikamızda ucaldılmış heykəltəraşlıq nümunələrində müstəqillik, vətənpərvərlik və dövlətçilik ideyaları qüvvətli təzahür edir. Əgər ötən əsrin monumental heykəltəraşlığında sovet ideologiyası və ədəbiyyat xadimlərinin surətləri üstün idisə, müstəqillik dövründə abidələrin mövzusunda, ideya-bədii məzmun və istiqamətində əsaslı dəyişikliklər baş vermişdir. Hər şeydən öncə bunu vurğulamaq vacibdir ki, sovet dövründən qalma saxta ideologiyalar həqiqi vətənpərvərlik, azərbaycançılıq ideyaları ilə əvəzlənmişdir ki, bu da monumental plastikanın böyük nailiyyətidir. Lakin bunu heç də ənənələlərin pozulması, ənənə və varislik dəst-xəttinin kəsilməsi kimi qiymətləndirmək olmaz. Əvvəla, Azərbaycan heykəltəraşlığında ötən əsrin 50-60-cı illərində formalaşmış yüksək bədii sənətkarlıq məktəbi bu gün də davam edir. İkincisi, müasir heykəltəraşlıq klassik sənət normalarına riayət

etməklə məhz ötən əsrdə formalaşmış yüksək sənət meyarlarını irəli aparmağa çalışır. Son illərdə Bakıda və digər şəhərlərdə ucaldılmış bir çox abidələrdə bunun şahidi olmaq mümkündür. Belə ki, Bakıda Şah İsmayıl Xətainin, Zivər bəy Əhmədbəyovun, Naxçıvanda Dədə Qorqudun, Koroğlunun, Salyanda Əlibəy Hüseynzadənin heykəllərinin kompozisiyası klassik ənənələrə istinad edir.

Mövzuya ənənə və varislik prizmasından yanaşdırda, ilk olaraq yadımıza böyük sənətkar, akademik Ö.Eldarov düşür. Çünki Ö.Eldarov hələ sovetlər dönəmində heykəltəraşlıqda Heydər Əliyev mövzusunun əsasını qoymuş və onu müstəqillik illərində inkişaf etdirmişdir. [23] Ümumiyyətlə, Ö.Eldarov elə müstəsna sənətkarlardandır ki, onun yaradıcılığında nəzərdən keçirilən problem həm bir şəxsin yaradıcılığı nümunəsində, həm də tarix və müasirlik kontekstində müvəffəqiyyətlə təhlil edilə bilər.

Xatırlayaq ki, Heydər Əliyevin ilk heykəl-büstü hələ onun sağlığında, Ö.Eldarov tərəfindən hazırlanmış və Naxçıvan şəhərində ucaldılmışdır. [24] Əsərin hazırlanması prosesində heykəltəraş bir neçə dəfə Heydər Əliyevlə görüşmüş və onun surətini canlı naturadan işləmişdi. Beləliklə, hələ sovetlər dönəmində heykəltəraşlıqda Heydər Əliyev mövzusu təşəkkül tapdı. [25]

Heydər Əliyevin monumental sənətdə düzəldilən obrazlarının böyük əksəriyyəti, təbii ki, 2003-cü ildən sonrakı dövrə təsadüf edir. Ona həsr edilmiş heykəllər içərisində qəbirüstü abidə bədii-estetik və ideya baxımından xüsusilə seçilir. Abidə 2004-cü ildə Ö.Eldarov tərəfindən hazırlanmışdır. [26] Bununla da qocaman heykəltəraş öz yaradıcılığı nümunəsində, heykəltəraşlıqda Heydər Əliyev mövzusunun ənənə və müasirlik kontekstində işlənməsinin əsasını qoydu. Sonralar bu dəst-xətt həm onun özü, həm də başqa heykəltəraşlar tərəfindən davam və inkişaf etdirildi.

---

[23] Ömər Eldarov. Sərvət (mətnin müəllifi G.Mirzə). Bakı, "Şərq-Qərb", 2013, s. 55.

[24] Naxçıvan Ensiklopediyası. Bakı, Azərbaycan Milli Elmlər Akademiyası, 2002, s. 390.

[25] Rasim Əliyev. Memar. Xatirələr. Bakı-İstanbul, "Meqa-basım", 2016, s. 350.

[26] Əsgərova N. Heydər Əliyev obrazı heykəltəraş Ömər Eldarovun yaradıcılığında // Heydər Əliyev və Azərbaycan incəsənəti (Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93 illiyinə həsr olunmuş Respublika elmi konfransının materialları). Bakı, "Orxan" NPŞ MMC, 2016, s. 65-71.

Bakıda ucaldılmış “Dədə Qorqud” abidəsi özünəməxsus, mürəkkəb xarakterli kompozisiya həlli ilə diqqət çəkir (2013; heykəltəraş Görüş Babayev). Şəhərin mərkəzində, yeni yaradılmış “Dədə Qorqud” parkı ərazisində qoyulmuş heykəl möhtəşəm gövdə üzərində ucalan ağac formasındadır. Abıdənin ayrı-ayrı lokal süjetləri ağacın qol-budaqları arasında qurulmuşdur və ona istinad edir. Rəmzi olaraq qədim türk və azərbaycanlı soy-kökünü əks etdirən ağac həm də Dədə Qorqud müdrikliyini simvolik formada açıb göstərir. Kompozisiyada el qəhrəmanının şirlə vuruşması, at belində səfərə çıxan oğuz ərləri, dirilik rəmzi sayılan Simurq quşu, müxtəlif simalar, o cümlədən əlində qopuz tutmuş Dədə Qorqudun müdrik siması yer alır. Abidənin alt hissəsində Qazan xanın ağac gövdəsinə sarıdığı Qaraca çobanın cüssəli, qüdrətli obrazı diqqəti cəlb edir. Heykəl ağ mərmərlə üzlənmiş oval formalı alçaq pyedestal üzərində dayanıb. Bütövlükdə kompozisiya üç hissədən ibarət pilləli dairəvi əsas üzərində qurulmuşdur. Dairəvi əsas heykələ həm qarşıdan, həm də arxa və yan tərəflərdən baxmağa imkan verir.

Müstəqillik illərində Azərbaycanda monumental heykəltəraşlıqla yanaşı, dəzgah heykəltəraşlığı da inkişaf etmişdir. Dəzgah heykəltəraşlığının tematikası, ideya-estetik mahiyyəti xeyli genişlənmiş, o, yeni bədii xüsusiyyətlər əldə etmişdir.

Müasir Azərbaycan kiçik həcmli plastikası üçün özünəməxsus forma və məzmun axtarışları, milli və transmilli bədii üslublar, ənənəvi ifadə vasitələrinin və novatorluğun vəhdəti xarakterikdir. Modernist sənətə xas olan təmayüllər – abstraksionizm, avanqardizm, primitivizm və s. kiçik həcmli plastikada özünü daha intensiv şəkildə büruzə verir.

Disertasiyanın III - fəsli **“Xoreoqrafiya sənətində bədii üslubun təkamülü ideya-bədii təmayüllərin inkişafi kontekstində”** adlanır. Bu fəsil də iki yarımfəsildən bibarətdir. Birinci yarımfəsil **“Balet sənətində ənənələrin ötürülməsi prinsipi müasir yaradıcı prosesin ideya-bədii əsası kimi”** adını daşıyır. Burada tədqiqatın əsasını təşkil edən ənənə və müasirlik münasibətləri balet janrı vasitəsilə təfsir olunur.

Şübhəsiz ki, müasir Azərbaycan baletində Q.Qarayevin “Yeddi gözəl” əsərinin xüsusi yeri və rolu vardır. Belə demək mümkündür ki, bu əsər həm klassik, həm də müasir balet sənətinizin daim canlı nümunəsidir. “Yeddi gözəl” baletinin səhnə həyatını nəzərdən keçirdikcə müstəqillik dövrü Azərbaycan xoreoqrafiyasında ənənə və müasirlik qarşılığını dərindən duyub izləmək mümkündür.

Məlum olduğu kimi, “Yeddi gözəl” baletini Q.Qarayev 1952-ci ildə yazmışdır. Baletin premyerası o zaman baş tutub. Baleti səhnələşdirmək

üçün tanınmış rus baletmeysteri P.A.Qusev Bakıya dəvət olunmuşdu. Əsərin ilk dirijoru Kamal Abdullayev idi. Əsas rollarda Qəmər Almaszadə, Leyla Vəkilova (Aişə), Yuri Kuznetsov, Konstantin Bataşov (Bəhram şah), Anatoli Urqantsev və Kamal Həsənov (Vəzir) çıxış edirdilər. Quruluş zəngin milli xarakterə malik idi. Quruluşçu baletmeyster Pyotr Andreyeviç Qusev Azərbaycan mühitini, Azərbaycan mədəniyyətini öyrənmək üçün çox vaxt sərf eləmişdi və bütün bunları səhnədə təcəssüm etdirməyə çalışırdı.

"Yeddi gözəl"in ilk quruluşu zamanı əldə edilən təcrübə əsərin sonrakı qoyuluşlarında daha da təkmilləşdirildi. Doğrudur, baletin böyük fasilələrlə tamaşaya qoyulması, bu zaman təbii ki, yeni nəsli təmsil edən mütəxəssislərin işə cəlb edilməsi ənənə və varislik münasibətlərinə mənfi təsir göstərirdi. Bununla belə ümumi ənənələrin nəsildən nəslə ötürülməsi, həmçinin mövcud arxiv materialları əsərin əvvəlki quruluşlarından istifadə etməyə imkan verir.

2008-ci ildə "Yeddi gözəl"in ADOBT-da yeni quruluşda premyerası baş tutdu. Əsası hələ sovet dövründə qoyulmuş beynəlmiləl heyət prinsipi bu dəfə də özünü büruzə verdi. Əgər sovet dönəmində Azərbaycan səhnəsinə əsasən Rusiya və Ukraynadan mütəxəssislər dəvət edilirdisə, müstəqillik illərində belə ölkələrin siyahısı xeyli genişlənmidir. İsveç qoyuluşlarında 18 ölkədən rəqqasların dəvət edilməsi bunun əyani göstəricisi idi. Bu tendensiya baletin bütün sonrakı qoyuluşlarında qorunub saxlanılmışdır, çünki müasir baletin əsas prinsiplərindən biri də beynəlxalq yaradıcı kollektivlə iş birliyi qurmaqdır.

Azərbaycan balet sənətinin qiymətli nümunələrindən biri də böyük bəstəkar Fikrət Əmirovun yaratdığı "Min bir gecə" baletidir. Bu balet 1979-cu ildə yazılmışdır. Onun librettosunun müəllifləri Maqsud və Rüstəm İbrahimbəyovdur. Balet ilk dəfə ADOBT-nın səhnəsində tamaşaya qoyulub. Sonralar o, SSRİ-nin digər şəhərlərində də tamaşaya qoyuldu və böyük populyarlıq qazandı. Fərəhlidir ki, "Min bir gecə" baleti bu gün MDB-nin və digər ölkələrin nüfuzlu səhnələrində dəfələrlə nümayiş etdirilmişdir.

Əminliklə demək olar ki, F.Əmirovun "Min bir gecə" baleti zəngin milli məzmun və koloritə malikdir. İstedadlı rəssam Toğrul Nərimanbəyovun baletə verdiyi zəngin koloritli bədii tərtibat əsərin milli məzmununu daha da qüvvətli etmişdir.

"Min bir gecə" baletinin yeni səhnə həyatı 1992-ci ildə gerçəkləşib. Lakin o dövr respublikanın ictimai-siyasi və mədəni həyatında mürəkkəb, çətinliklərlə dolu bir dövr idi. Ona görə də baletin bərpası diqqəti o qədər

də cəlb etmədi. Lakin xeyli müddət keçdikdən sonra, 2013-cü ilin yanvarında balet ADOBT-nın səhnəsində yeni quruluşda təqdim olundu. Bu dəfə artıq F.Əmirov irsinin layiqli təqdimatı üçün bütün lazımi şərait var idi. Yeni təqdimatın baş baletmeysteri xalq artisti Tamilla Şirəliyeva, quruluşçu baletmeysteri Nailə Vəzirova, dirijor Cavanşir Cəfərov idilər. Baletin quruluşçu rəssamı 1979-cu ildə olduğu kimi yenə də Toğrul Nərimanbəyov idi (dekorasiya hissəsi üzrə). Quruluşun kostyum eskizlərini bu sahədə böyük təcrübəyə malik olan rəssam Tahir Tahirov vermişdi. Tamaşanın xormeysteri Əməkdar incəsənət xadimi Sevil Hacıyeva idi.

Ənənə və müasirlik münasibətləri ilk Azərbaycan baleti olan "Qız qalası"nın yeni quruluşunda özünü göstərir. Məlum olduğu kimi, əsərin premyerası 18 aprel 1940-cı ildə ADOBT-da gerçəkləşdirilmişdir. O zaman Azərbaycan xoreoqrafiya sənətinin inkişafında müstəsna xidmətləri olmuş Qəmər Almaszadə və Konstantin Bataşov baş rollarda çıxış etmişdilər. Onların ifa tərzi bu baletin bədii ənənələrinin formalaşmasında şübhəsiz ki, mühüm rol oynayıb. Lakin aradan ötən on illər ərzində balet sənəti əsaslı surətdə inkişaf etmiş, yeni bədii forma və üslublar yaranmışdır.

Müstəqillik illərində klassik irsin yenidən səhnəyə dönüşü "Qız qalası" baletinə də aiddir. 1999-cu ildə baletin üçüncü redaksiyası işıq üzü gördü. Üçüncü quruluşun müəllifi Fərhad Bədəlbəyli idi. Bununla da ənənədən müasirliyə uzanan inkişaf kontekstində Ə.Bədəlbəyli (1940) – Q.Almaszadə (1959) və F.Bədəlbəyli (2011) dəst-xətti müəyyənləşdi.

İkinci yarımfəsil **"Xoreoqrafiyada milli xarakter və multikultural təfəkkür tərzi"** adlanır. Həmin yarımfəsildə xoreoqrafiya sənəti nümunəsində milli məzmun azərbaycanlı mentalitetinə xas olan multikultural dəyərlər müstəvisində işıqlandırılır.

Azərbaycan qədim zamanlardan bəri Şərq ilə Qərbi birləşdirən körpü olmuşdur. ona görə də multikultural dəyərlərə burada böyük önəm verilməsi təsadüfi deyil. "Böyük İpək yolunda yerləşən Azərbaycanın ərazisi təkcə uğurlu və sadə deyil, müxtəlif xalqların məfkurə bölgüsünə çevrilmiş, qonşu xalqlar üçün bir həyat məktəbi olmuşdur. Azərbaycan Böyük İpək yolunun üzərində yerləşir, mədəniyyət və sivilizasiyalararası körpü olaraq, dünyanın ən qədim Avrasiya və Qafqaz mədəniyyətinin beşiyi sayılır. Azərbaycanın belə bir yerdə olması onu Şərqin Qərbə qapısı etmiş, mədəniyyətlərin, dinlərin, adətlərin, müxtəlif xalqların bir-birinə qovuşmasına şərait yaratmışdır". [27]

[27] Rəsuli İradə. Mədəniyyətlərarası dialoq və millilik meyarları / Sənət akademiyası (elmi-nəzəri jurnal) № 1 (3) 2017, s. 85-89.

Klassik əsərlərdən Q.Qarayevin, A.Məlikovun, X.Mirzəzadənin, T.Bakıxanovun və bir çox başqalarının multikultural dəyərlərə istinad edən yaradıcılıq nümunələrini göstərmək olar. Ötən əsrin 50-80-ci illərində yazılan bu əsərlər dərin humanizmi, multikultural təfəkkürü ilə yadda qalır. Eyni zamanda məzmundan asılı olmayaraq bu əsərlərə milli ruh hakimdir. Həmin əsərlərin müasir dövrdəki səhnə təcəssümü ənənə və müasirlik münasibətlərini ifadə etməklə, həm də bəşəri hisslərin, o cümlədən multikultural dəyərlərin müasir həyatla səsləşməsini açıb göstərir.

Xəyyam Mirzəzadənin 1984-cü ildə yazdığı "Ağlar və Qaralar" baleti Azərbaycan baletinin maraqlı nümunələrindən biridir. Əsərin ideya xəttində həm milli, həm də multikultural dəyərlər özünü təcəssüm etdirir. Əsərin milli xarakter daşıması onun multikultural dəyərlərə sadiqliyini aradan qaldırmır, əksinə, ona dəstək olur. Əsər uzun müddət tamaşaya qoyulmamış, onun premyerası yalnız 2000-ci ildə baş tutmuşdur.

Milli xarakter və multikultural dəyərlərin geniş təmsil olunduğu müasir səhnə əsərlərində biri də Polad Bülbüloğlunun "Eşq və Ölüm" baletidir. Azərbaycan mədəniyyətində mühüm hadisəyə çevrilən bu balet tarixi süjet və müasir baxışları ilə seçilir. Burada Azərbaycan xalqının milli varlığı, dünyagörüşü, musiqi mədəniyyəti qabarıq ifadə olunub.

Əsərdə multikultural dəyərlər çoxmüstəvili xarakter daşıyır. Bu dəyərlərə Qərb (rus) və Şərq musiqisinin sintezi, klassik və müasir balet ənənələrinin vəhdəti, beynəlxalq yaradıcı kollektiv və nəhayət multikultural dəyərləri əks etdirən süjet daxildir.

Çağdaş Azərbaycan musiqisində multikultural dəyərlərin maraqlı nümunələrini görkəmli bəstəkar Firəngiz Əlizadə yaratmışdır. Onun multikulturalizmi Şərq və Qərb musiqisinin müasir ruhlu sintezindən qaynaqlanır. "Muğam və avanqard sistemlərinin bənzərsiz, orijinal sintezi F.Əlizadənin dünyanın onlarla ölkəsində səslənən, dünya şöhrətli ifaçıların və kollektivlərin repertuarında daim təmsil olunan əsərlərində - violonçel və fortepiano üçün "Habilsayağı", simli kvartet üçün "Dilogiya", "İpək yolu" silsiləsi kimi əsərlərində parlaq surətdə özünü əks etdirir". [28]

Multikultural dəyərlərin səhnə təcəssümündə irihəcmli əsərlərlə yanaşı, Beynəlxalq layihələrin, mədəni-kütləvi tədbirlərin də böyük əhəmiyyəti vardır. Son illərdə Azərbaycanda keçirilən belə tədbirlər ölkəmizi bütün dünyada təbliğ etməklə, milli xarakterini nümayiş etdirməklə yanaşı, həm də onun multikultiral dəyərlərə sadiqliyini nümayiş etdirir.

[28] Əfəndiyev T.İ. Mədəniyyətdə tarixilik və müasirlik. Bakı, "Təhsil", 2012, s. 186.

Son illərdə Azərbaycanda müxtəlif irimiqyaslı Beynəlxalq layihələr həyata keçirilmişdir ki, onların da bədii tərtibatında xoreoqrafiyanın rolu böyükdür. Avroviziya müsabiqəsi, IV İslam Həmrəyliyi Oyunları, Formula-1 yarışları və bir çox başqa tədbirlərin keçirilməsi maraqlı rəqs nömrələri ilə yadda qalmışdır. Bizim üçün mühüm olan budur ki, həmin rəqs ifaçılığında Azərbaycanla yanaşı, dünya xalqlarının da rəqsləri ifa olunub. Həm də ifaçılar əsas etibarilə Azərbaycan xoreoqrafiya sənətini təmsil edirdilər. Burada xoreoqrafiyanın milli və multikultural xarakteri özünü aydın büruzə verir.

**Nəticədə** müstəqillik dövrü Azərbaycan incəsənətində ənənə və müasirlik mövzusunda geniş nəzəri və faktoloji material toplanmış və sistemləşdirilmişdir. Əldə olunan nəticələr aşağıdakı müddəalarda öz əksini tapır:

- Ənənə və müasirlik münasibətləri müstəqillik dövrü Azərbaycan incəsənətinin inkişafında ciddi əhəmiyyətə və mövqeyə malikdir;
- Həm təsviri sənətdə, həm də xoreoqrafiyada uzun illər ərzində təşəkkül tapmış bədii ənənələr müstəqillik dövrü incəsənətinin böyük sənət nailiyyətləri əldə etməsinin təminatçısı olmuşdur;
- Rəssamlıq sənətində XX əsrin əvvəllərində meydana çıxmış realist ənənələr inkişaf edərək yüksək peşəkar sənətə çevrilmişdir ki, bu da öz növbəsində müasir dövrdə Azərbaycan təsviri sənətinin sürətli inkişafına və bütün dünyada tanınmasına imkan yaratmışdır;
- Müasir Azərbaycan heykəltəraşlığı klassik ənənələri dolğun şəkildə əks etdirməklə müasir dövrdə bir çox nailiyyətlərə imza atmışdır. Eyni zamanda onun ideologiyasında əsaslı dəyişikliklər baş vermiş, milli ideologiyanı, qəhrəman keçmişi və vətənpərvərlik çağırışlarını təcəssüm etdirən monumental sənət abidələri ucaldılmışdır;
- Tarixən formalaşmış milli ənənələr Azərbaycan xoreoqrafiyasının müstəqillik illərində əldə etdiyi sənət uğurlarının təməlində dayanır. Milli və bəşəri məzmun daşımaqla, müasir Azərbaycan xoreoqrafiya sənəti humanizm, multikulturalizm ideyalarını özündə ehtiva edir və bu baxımdan bütün dünyada geniş populyarlıq qazanmışdır;
- Azərbaycan balet sənəti milli mədəniyyəti bütün dünyaya tanıdan, böyük bədii və emosional potensiala malik olan sənət sahəsidir. Klassik nailiyyətlərə istinad etməklə, onlardan yaradıcılıqla bəhrələnməklə Azərbaycan balet sənəti beynəlxalq arenada mühüm yaradıcılıq uğurları qazanmışdır;
- Dissertasiyada sintetik sənət növü olan xoreoqrafiyanın çoxplanlı təhlili Azərbaycan sənətşünaslığında ilk dəfə olaraq bu sahənin əhatəli bədii-nəzəri mənzərəsini yaratmağa imkan vermişdir;

- Milli ənənə zəminində formalaşan müasir Azərbaycan incəsənəti ideya və bədii-estetik müstəvidə milli mentalitetdən qaynaqlanan humanist prinsiplərə istinad edir. Bu prinsiplər həm milli, həm də bəşəri xarakter daşıyır. Milli özünüdərk, vətənpərvərlik, azərbaycançılıq ideyaları, həmçinin tolerantlıq və multikultural dəyərlərə hörmət müstəqillik dövrü incəsənətinin ideya-bədii xüsusiyyətlərinin əsaslarını təşkil edir.

**Dissertasiya işinin əsas müddəaları müəllifin nəşr edilmiş aşağıdakı məqalələrində öz əksini tapıb:**


1. Müstəqillik dövrü Azərbaycan təsviri sənətində ənənə və müasirliyin qarşılıqlı əlaqələri // BXA, Sənət Akademiyası (elmi nəzəri jurnal), №1(3), 2017, s. 40-47.
2. Azərbaycan baleti: ənənə və müasirliyin kəsişməsində (Qara Qarayevin “Yeddi gözəl” baletinin quruluşları nümunəsində) // Musiqi dünyası, №4/73, 2017, s. 70-74.
3. Müstəqillik dövrü Azərbaycan incəsənətində ənənə və müasirlik // (AMEA İncəsənət və Mədəniyyət problemləri (Beynəlxalq elmi jurnal), №1(59), 2017, s. 99-105.
4. Yaradıcılıq prosesi: ənənədən müasirliyə doğru (Müstəqillik dövrü Azərbaycan təsviri sənəti nümunəsində) // (ADMIU). Mədəniyyət dünyası XXXIV buraxılış. Bakı, 2017, s. 203-211.
5. Взаимосвязь традиции и современности в искусстве Азербайджана периода независимости // Мова І Культура, № 21, Том І (190), Киев, 2018, с. 168-175.
6. Təsviri sənət və xoreoqrafiyada milli simvolika // (AMEA İncəsənət və Mədəniyyət problemləri (Beynəlxalq elmi jurnal), № 2, (64), 2018, s. 66-76.
7. Взаимосвязи традиции и современности в изобразительном искусстве Азербайджана периода независимости // Научные исследования в сфере гуманитарных наук: Открытия XXI века. Материалы VIII Международной научно-практической конференции. Пятигорск, 2018, 0,5 п.л.

**Muradova Natavan Apdin**

## Art of Azerbaijan in the period of independence in the context of tradition and modernity

### Summary

Thesis consists of introduction, three chapters, six sections, conclusion, literature and application.

**The introduction** includes the determination of the relevance, purpose and tasks of the study, the identification of the topic knowledge degree, the information on scientific novelty, methodology, and practical significance of the thesis work.

**Chapter I "The role of the cultural heritage in the development of artistic processes"** deals with the analysis of cultural and historical values, their importance in the preservation and development of artistic traditions in the modern period. Chapter consists of two sections in which the problem posed is considered in the context of cultural and historical interrelations and national artistic symbols.

**Chapter II "The interrelation of tradition and modernity in the fine arts"**, like Chapter I, consists of two sections. The first one includes consideration of the issues of interrelation of tradition and modernity by the example of painting and graphics. The second one includes the study of the embodiment form of the national character in the field of sculptural art.

**Chapter III "Evolution of art style in the choreographic art in the context of development of ideological and artistic trends"** consists of two sections as well. In the first section, the scientific problematics is based on the peculiarities of the preservation and development of traditions in the modern ballet art. The development of artistic traditions is traced by the example of classical and modern productions of the famous works of Azerbaijani ballet art. The second section deals with the interrelation of the national character and multicultural thinking by the example of choreographic art.

**The conclusion** contains the results of the study.

**Натаван Апдин гызы Мурадова**

## Искусство Азербайджана периода независимости в контексте традиции и современности


### Резюме

Диссертация состоит из введения, трех глав, шести разделов, заключения, литературы и приложения.

**Во введении** обусловлены актуальность, цель и задачи исследования, выявлена степень изученности темы, дана информация о научной новизне, методологии, практической значимости диссертационной работы.

**I – Глава - Роль культурного наследия в развитии художественных процессов -** посвящена анализу культурно-исторических ценностей, их значению в сохранении и развитии художественных традиций в современный период. Глава состоит из двух разделов, в которых поставленная проблема рассматривается в контексте культурно-исторических взаимосвязей и национальных художественных символов.

**II – Глава - Взаимосвязи традиции и современности в изобразительном искусстве –** как и первая, состоит из двух разделов. В первом из них вопросы взаимосвязи традиции и современности рассматриваются на примере живописи и графики. Во втором – исследуются формы воплощения национального характера в области скульптуры.

**III – Глава - Эволюция художественного стиля в хореографическом искусстве в контексте развития идейно-художественных тенденций –** также состоит из двух разделов. В первом разделе основу научной проблематики составляют особенности сохранения и развития традиций в современном балетном искусстве. Прослеживается развитие художественных традиций на примере классических и современных постановок известных произведений азербайджанского балетного искусства. Во втором разделе изучается взаимосвязь национального характера и мультикультурного мышления на примере хореографического искусства.

**В заключении** подводятся итого исследования.

Format 60x84 $^{1}/_{16}$
AMEA-nın mətbəəsində çap olunub.
Sayı: 100 nüsxə.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХИТЕКТУРЫ И ИСКУССТВА**

*На правах рукописи*

**НАТАВАН АПДИН гызы МУРАДОВА**

# ИСКУССТВО АЗЕРБАЙДЖАНА ПЕРИОДА НЕЗАВИСИМОСТИ В КОНТЕКСТЕ ТРАДИЦИИ И СОВРЕМЕННОСТИ

**Специальность: 6203.01 – Теория, анализ и критика искусства**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора**
**философии в области искусствоведения**

**Баку - 2018**